***YUSİF SƏFƏROV***
***filologiya üzrə elmlər doktoru,***
***professor***

# BİR DAHA "NUH TUFANI" HAQQINDA



***"Nuh tufanı"nın ilk yazılı qaynağı b. e. ikinci minilliyinin ortalarına aid edilən şümer əfsanəsidir. "Bilqamıs" dastanına görə Nuh deyil, Utnapiştim götürdüyü canlılarla düzəltdiyi gəmidə daşqından xilas olmuşdur. "Atraxasis" adlı digər akkad dastanında da dünya tufanından bəhs olunur. Əhdi-ətiqdəki yəhudi əfsanəsində də yer üzündəki böyük günahlara görə daşqın baş vermişdir. Nuh peyğəmbər və ailəsindən, gəmiyə götürülmüş canlılardan başqa hər şey məhv olmuşdur. Nuh öz ailəsi və gəmiyə götürdüyü canlılarla birlikdə Naxçıvan ərazisində məskən salmışdır(2, s. 27; 12, s. 122, 124). Qurani-kərimin 44-cü surəsində isə Nuhun gəmisi Cudi dağında quruya oturmuşdur. Bunun Türkiyənin Şırnak ərazisində eyni adla anılan dağ olduğu da göstərilir(21, s. 481, 482). Əfsanənin Şərqi Anadolu variantında isə Nuhun gəmisi Ağrıdağda quruya çıxmışdır. Bu barədə K. A. Nikitin yazır ki, Ağrıdağ dünya tufanından sonra Nuhun əfsanəvi gəmisini qəbul etdi və bu ikinci sivilizasiyanın başlanğıcına çevrildi. Nuh peyğəmbər dağın ətəyindəki vadidə üzüm bağları salıb ki, həmin yerdə sonralar Arkuri kəndi yaranmışdır. "Arkuri" sözü rus dilində "üzüm bağı salmaq" deməkdir"(27, s. 109, 110). K. A. Nikitinin "Akori" sözünü rus sözü hesab etməsi məntiqsizdir. "Akori" sözü "Dədə Qorqud" boylarında "Arkuri" şəklində işlənmiş türk sözüdür. Tarixən bu bölgənin davamlı olaraq Oğuz-türk yurdu olması məlumdur. Təbii ki, XIX yüzillikdə də Ağrıdağ ətrafında yaşayan əhalinin etnik tərkibi daha çox türklər, türkmənlər, qarapapaqlar, Azərbaycan türkləri idi(8, s. 176).***

Haqqında qısa məlumatlar verilən bu qədim variantlar Naxçıvanda yaşayan əfsanənin süjet və məzmununa çox yaxındır. Coğrafi baxımdan bunların bağlandığı ərazilər də bir-birinə o qədər uzaq deyil. Amma belə süjetlərdən biri də uzaq Misir, digərləri Altay, hind və Çin ərazilərində də mövcuddur(19, s. 19). Araşdırıcılardan R. Sultanovun fikrinə görə, dünya





tufanı əfsanəsinin qədim variantları Tövratda yazılanların sanki eynidir. İngilis alimi Corc Simitin tədqiqatına görə, bunlar Tövratdan götürülməmişdir(19, s. 22). XIV Lüdovikin həkimi İoan Astirikin və məşhur ilahiyyatçı De-Vettanın fikrinə görə, Tövratdakı "Nuh tufanı" iki böyük mənbədən alınmışdır. Bunlardan birinə görə daşqın b. e. doqquz, ikinciyə görə altı əsr qabaq olmuşdur. B. e. 3800 il əvvəlki Babilistan məlumatına əsasən tufan və daşqının daha qabaq olduğunu yazanlar da vardır(19, s. 21, 22). Buna görə, tədqiqatların çoxunda dünya tufanının Tövratdan alındığı fikir qəbul edilmir, bundan əvvəlki şumer əfsanəsinin daha qədim olduğu göstərilir(28, s. 148, 149).

"Nuh tufanı" əfsanəsinə və "Naxçıvan" sözünü "birinci dayanacaq"(29, s. 19) kimi izah edən müəlliflərin fikirlərinə görə, Naxçıvan Nuhcuların vətənidir. Əfsanə m. ö. II minilliyin ortalarında yazıya alınarkən tufan hadisələri çoxdan əfsanələşmişdir. Mesopotamiyada baş vermiş fəlakətli daşqın hadisələrindən dövrümüzü 7 min 5 yüz illik bir zaman ayırır. Əfsanəyə görə, bu, Nuhun gəmisinin quruya çıxdığı dövr deməkdir.



***Naxçıvanda Nuhun bərpa olunmuş türbəsi***

Tufan hadisəsinin reallıqla əlaqəsini araşdırmış bəzi müəlliflər arxeoloji və geoloji faktlara əsasən "daşqının Dəclə, Fərat çaylarının daşması nəticəsində baş verdiyi" fikrini irəli sürmüşlər. Əvvəllər apardığımız tədqiqatlardan birində qeyd etmişik ki, bu dövrlərdə Araz çayında da fəlakətli daşqınlar olmuşdur(17, s. 33). "Araz" sözünün şümercə "coşan", "dağıdan çay" mənasında olması(16, s. 20) da bu fikrin düzgünlüyünə inamı artırır.



*Gəmiqaya dağı*

1982-ci ildə Nuhun gəmisinin qalıqlarının Gəmiqayada qalması barədəki el rəvayətindən bəhs etmişik(17, s. 33). Bundan qabaq isə 1973-cü ildə Ərəfsə kəndində (Culfa rayonu) bir aya qədər vaxt olmuş ədəbiyyatşünas Əbülfəz Hüseyni bölgədəki İlanlı dağ, Nəiminin türbəsi, Ərəfsə piri və Gəmiqayada araşdırmalar aparmışdır. Bu barədə o çap etdirdiyi məqalədə XVI əsr ərəb alimi Əlşərfiyə əsasən Nuhun gəmisinin Gəmiqayada olduğunu yazmışdır(9, s. 49). Bundan çox sonra 2008-ci ildə tarixçi-etnoqraf Q. Qədirzadə də bu fikri genişləndirərək yazır: "Sonrakı dövrlərdə aparılan araşdırmalar e. ə. təqribən VII minillikdə adı keçən bölgədə, xüsusən Qara dəniz, Xəzər-Aral hövzəsində böyük subasmaların olduğu, hətta Ərzuruma qədər bütün regionun su altında qaldığını söyləməyə imkan verir"(14, s. 52).

Gəmiqayada gəmi təsvirlərinin olması da bu sahədəki dəlillərdəndir. "Gəmiqaya rəsmlərindəki gəmi motivlərində natura ilə yanaşı, təlatüm, çalxanma elementlərinin mövcudluğu da adı çəkilən məkanın bir daha Nuh əfsanəsi ilə səsləşdiyini söyləməyə imkan verir"(7, s. 606). Gəmiqaya yaxınlığında Nuhun oğlu Yafəsin adına mahal var. Araz çayı da Yafəs mahalından keçir. Tanınmış alim Q. Kəndliyə görə, "indiki Yafəs mahalı Qaradağ vilayətinin Horand bölgəsindən sayılır... Yafəs mahalı Ərdəbillə qonşudur"(10, s. 14). Yafəsin 7 oğlundan birinin adı Qomer idi. Bibliyada





Qomer, yaxud Qəmər tayfasının türk tayfalarından biri olduğu təsdiqini tapmışdır(13, s. 88. ). Naxçıvan və Şərqi Anadolu bölgələrində Qəmərli və Kəmərli adlı kəndlərin olması Qamer-Qəmər türk tayfasının göstərilən bölgələrdə yaşadığını sübut etməkdədir.



***Nuhun ad verdiyi İnandağ***

Uca dağ başlarında gəmi axtarışlarının aparılması faydasızdır. Çünki 7 min 5 yüz il bundan əvvəl düzəldilməsi güman edilən gəminin qalıqlarının zamanımızadək qalması real fikir deyil. Necə ki, bundan da qabaq Türkiyənin Ağrı, Doğu Bəyazid bölgəsindəki Cudi dağlarında aparılmış axtarışlar nəticə verməmişdir. Burada əfsanəyə çevrilmiş çox fəlakətli təbiət hadisəsindən danışılır. Həqiqət isə belədir ki, böyük fəlakət, tələfat törətmiş güclü tufan və daşqın baş vermişdir.

Əfsanədəki bəzi yer, dağ, şəhər adları ilə yanaşı, Gəmiqaya yaxınlığındakı Qaradağ, Ərdəbil əraziləri də Nuh məkanı sayılır. Deyilənə görə, Nuh bu məkandakı nəhəng ağaclardan gəmi düzəltdirib(5, s. 68, 69).

Ağrıdağ ərazisi m. ö. III minilliyin əvvəllərindən Qafqaz və Şərqi Anadolu bölgəsində müstəqilliyini sürdürmüş hürrilərin hakimiyyəti altında olmuşdur(22, s. 51). Eləcə də bu yerlər prototürk və türk tayfalarının yaşadığı ərazilər kimi çox vaxt Azərbaycanla eyni dövlətin tərkibində olub.

"Ağrı" sözünün "yüksək" mənası verən aqrı, yaxud arqu forması bir çox mənalardan başqa "iki dağ arasında düz yer, vadi, dərə", "dag silsiləsi,

zirvə" mənalarında da izah olunur(15, s. 69, 70). S. Əlizadə də "arquri" sözünü bir neçə məna ilə yanaşı "köndələn" mənasında açıqlamışdır(6, s. 189). Sözün mənalarının çoxu böyük Ağrıdağ və kiçik Ağrıdağın coğrafi quruluşuna, yerləşdiyi əraziyə uyğundur. Türk alimi M. F. Kırzıoğlu isə "Dədə Qorqud" boylarında adı çəkilən Aladağı oğuzların mərkəz şəhəri saydığı Sürməlinin cənubunda olan Ağrıdağ hesab edir. M. F. Kırzıoğlunun "Dədə Qorqud" boylarında adı çəkilən Aladağın Ağrıdağ olduğu fikrilə razılaşmaq çətindir. Bizcə, Aladağ Ağrıdağdan cənubda Van gölünün şimal-qərb tərəfində yerləşir. İqdir vilayətinin şimal-qərb tərəfində yerləşən dağlıq sahə isə Alagöz dağları adlanır. Lakin müəllifin "Ağrı" sözünün 1840-cı ildə vulkan püskürməsi nəticəsində lava axını altında itib-batmış Arkuri kəndinin adından alınması fikri həqiqətdir(24, s. 70). Arqu, həm də əski türk tayfalarından birinin adıdır. Bu gün də dağa yaxın olan Ordubad bölgəsində "Ağrı" adlı kənd və dağ mövcuddur. Bunlar Arqu tayfasının vaxtilə Naxçıvan-Sürməli və orta Arazətrafı bölgələrdə yaşadığını göstərir. Ermənilərin Ağrıdağı "Ararat" adlandırması isə tam əsassızdır. "Ararat" toponimi Urartı dövlətinin Bibliyada çəkilən adıdır, erməni dilinə xristianlığın bizim eranın IV əsrində qəbul olunması ilə bağlı Bibliyadan keçib. Q. A. Melikişviliyə görə, "Urartı" sözü hürri dilindədir. Bu dil Urartı dili ilə birlikdə Qafqaz mənşəlidir(26, s. 7, 8). Erməni dili isə hind-Avropa dil ailəsinə daxildir. Ona görə də "Ararat" erməni sözü olmadığından onu ermənicə izah etmək olmaz.



***Nuhun ad verdiyi Ağır dağ - Ağrıdağ***





Naxçıvan və İqdir bölgələrində qeydə alınmış Ağrıdağ əfsanələrinin də bir qismi "Nuh tufanı" ilə bağlıdır. 2012-ci ildə Şərqi Anadolunun İqdir, Qaraqoyunlu, Aralıq yaşayış məntəqələrində qocalarla etdiyimiz söhbətlər də bu qədim türk yurdu sakinlərinin Nuhla bağlı əfsanələri yaxşı bildiklərini aydın göstərdi. İndi də Ağrıdağdan Aralıq bölgəsinə yenən dağ yolu "Nuh yolu" adlanır. Ağrıdağda "Nuh peyğəmbər" bulağının olduğu söylənir. İqdirdə "Nuh məscidi" fəaliyyət göstərir. XIX əsrdə bu bölgəyə səfər etmiş Aşıq Alının aşağıdakı şeirində də bu fikirlərə rast gəlinir:

***Yenə yada düşdü cənnətin bağı,***
***Neçə qapısı var, neçə otağı?***
***Nuh gəmisi, peyğəmbərin bulağı***
***Saysız sirrilərin var, Ağrıdağı.***

***Müəmman var, Alı üçün sirridi,***
***Şamdan əvvəl bir tərəfin yeridi.***
***Tozun qalxıb İrəvanı bürüdü,***
***Etdin Axuranı xar, Ağrıdağı (3, s. 48, 49).***

Şeirin sonuncu "Etdin Axuranı xar, Ağrıdağı" misrası da dağda vaxtilə püsgürmüş vulkan nəticəsində Axura kəndinin dağıldığını göstərir.

Ümumiyyətlə, "Nuh tufanı" qədim şumer-türk əsatiri və tarixi çoğrafiyası ilə bağlı əfsanədir. Bunu müəyyən mənada təzadlı olsa da, tədqiqatçı alim Murad Acının fikirləri də göstərir. O yazır: "Nuh bizim üçün öncə türk tarixinin bir səhifəsi kimi maraqlıdır... Çünki dünya tufanı haqqında əfsanə öncə Qədim Altayda yaranıbdır, oradan isə dünyaya yayılıb, əvvəlcə Şimali Hindistana, sonralar Orta və Yaxın Şərqə, Cənubi Qafqaza gəlib çıxıb"(1, s. 15). Sonra müəllif e. ə. birinci minillikdə Böyük Köçə başlamış türk ordularının marşrutunu Nuhun marşrutu ilə eyniləşdirir. Bildirir ki, "gözlənilməz səslənsə də, əfsanə xalqının Böyük Köçü "Tenqri" dininin, yəni Səmavi Allaha inancın yayılması ilə bağlıdır. Nuh insanların ilki olaraq təkallahlığı qəbul etmiş, yəni türk olmuşdur" (1, s. 16).

Altay əfsanələrinə görə, yeddi gün zəlzələ olmuş, yeddi gün dağlar od püskürmüş, yeddi gün yağış yağıb fırtına qoparmış, sonra müdhiş soyuq başlamışdır. Yeddi qardaş gəmi düzəltmişdir. Böyük qardaş Erlik, digəri Ülgen beş qardaşları ilə tufandan xilas olub quruya çıxmışlar. Başqa bir Altay əfsanəsində də Noma üç oğlu ilə gəmi düzəldib insanlardan və hər canlıdan bir cüt götürüb tufandan qurtarmışlar(20, s. 15, 16). Gəmi

Çomğoday və Tuluttu dağlarında qayaya çıxıb. Bundan başqa digər bir dağ da son dayanacaq kimi göstərilir. Bu dağın Yal Möngkü, bəziləri Iyık, quzey altaylılara görə isə Uludağ olduğu söylənilir(23, s. 22 , 23).

Yuxarıdakı fikrin davamı olaraq M. Acı yazır: "Altay türkləri İncil və Quranın, bələd olmadıqları bu kitabların süjetlərini inamla nağıl edirmişlər. Çünki onlar həm xristianlıq, həm də islamdan öncə yaranmış bir dinə sitayiş edirmişlər. O, qədim türk dini idi, bəşəriyyət Səmavi Allahın obrazının dərkini onunla bağlamışdır! Tenqriyə (əbədi Mavi Səmaya) inamla"(1, s. 15).

M. Acının "tufan əfsanəsinin qədim Altaydan Cənubi Qafqaza gəlməsi" fikrilə razılaşmaq olmaz. Əvvəldə deyildiyi kimi, tufan əfsanəsi İkiçayarasından, eləcə də Ön Asiyadan dünyanın çox bölgələrinə gedib çıxmış, nəticədə qədim Altay, Çin, Hindistan və digər variantlar yaranmışdır. Görünür ki, Bibliyanın yarandığından çox əvvəl İkiçayarası və Ön Asiyadan şərqə köç etmiş türk soyları özlərilə apardıqları tufan əfsanəsinin təsirilə Altay variantları yaranmışdır. Bu məsələdə şumerlərin prototürklər olması fərziyəsi və "Mesopatomiyadan Orxon-Yenisey ərazisinə getməsi" fikri də nəzərə alınmalıdır. Məsələyə bu meyarla yanaşdıqda şumer əfsanəsi də türkmənşəli sayıla bilər.

Əfsanənin Naxçıvan variantında Türk Nuhun oğlu kimi verilir. Türkün Yafəsin oğlu olması isə Tövratdan irəli gəlir. Bu barədə professor B. Ögəl yazır ki, əvvəl gördüyümüz kimi, Qaraxanlı və Səlcuq xanədanlarında İran mifologiyası ilə Əfrasiyabın soykökü ağır gəlirdi. Fəqət sonradan "Nuh oğlu Yafəs oğlu türk" soy bağlılığı ağır gəlməyə başladı. Bu, bir Tövrat və Quran təsiridir(25, s. 62). Onu da deyək ki, əfsanələrdə Nuhun 7 oğlu olduğu söylənir. Altay variantında da Nuhun (burada Nuhun adı çəkilmir) yeddi oğlu olduğu deyilir. Tufan əfsanələrində 7 rəqəmi çox işlənir. Görkəmli alim Y. V. Çəmənzəminli rəqəmlər (3, 7, 9, 40) vasitəsilə folklorun hansı xalqa məxsus olduğunu müəyyən etməyin mümkün olduğunu qeyd etmişdir(4, s. 11). 3, 40 və 7 ümumtürk folklorunda çox işlənən rəqəmlərdir.

Xristian ilahiyyatçıları Yer kürəsinin m. ö. 4004-cü ilin 23 oktyabrında yarandığını iddia edirlər. Kəldani din xadimləri isə Yerin iki milyon il əvvəl yarandığına inanırdılar. Hinduların "Veda" adlı müqəddəs kitablarına görə Kainat əbədidir. Lakin müəyyən bir zamanda məhv olur və yenidən yaranır. Bu bizim vaxt hesabı ilə 4 milyard 320 milyon ildə bir dəfə olur. Elm bunları qədul etmir. Radioaktiv elementlərin atomlarının parçalanması üsulu ilə Yer qatının yaşı 3,5 milyard ilə, bütün Yerin yaşı isə 5 milyard ilə yaxındır(11, s. 46, 47).

Bibliyaya görə, tufan hadisəsinin azı 7 min il bundan əvvəl baş verdiyinə





inansaq dünya 7 min il bundan əvvəl yaranıb. Amma Bibliyanın yarandığı Fələstində 50-60 min il bundan əvvəl insan yaşayışı olmuşdur. Deməli, Bibliyadakı məlumat reallığa söykənmir. Reallığı aydınlaşdırmaq üçün arxeoloji, geoloji, tarixi-coğrafi məlumatlara istinad etmək lazımdır.

Azərbaycan və onun Naxçıvan bölgəsi çox uzaq minilliklərdə su, dəniz yatağı olmuşdur. Belə bir fərziyə var ki, Aral, Xəzər, Qara və Aralıq dənizləri bu dövrlərdə bitişik olmaqla Atlantik okeanı ilə əlaqəli olmuşdur. Xəzər dənizi okeanla əlaqəli olduğu zaman Böyük və Kiçik Qafqaz sıra dağları adalar şəklində olmuşdur(18, s. 60-62).

Əfsanədəki "bütün dünya" anlayışı bu günki mənada "bütün dünya",- demək deyil. O vaxt Amerika və digər qitələr barədə insanların məlumatı yox idi. Belə fəlakətli, faciəli daşqınlar regional xarakterli olmuşdur. Fərat çayının sahilindəki Ən-Nasir şəhərinin yaxınlığındakı qədim Şumer şəhəri Urun xarabalıqlarında aparılmış qazıntılar göstərib ki, eramızdan 3300 il əvvəl Ur gözəl şəhər olub(11, s. 83). Şəhərin dağılıb səhra qumları altında qalması güclü daşqından və Kəngər körfəzindən quruya hücum çəkən güclü sunami dalğaların təsirindən baş vermişdir. Zaman keçdikcə faciəli təbiət hadisələri ilk olaraq şumer, akkad, sonra "Nuh tufanı" əfsanələri və onların digər variantlarını yaratmışdır.

## ƏDƏBİYYAT

1. Acı M. Nuhun gəmisi harayacan üzübmüş? AMEA-nın NB xəbərləri, 2005, №1, s. 13-24 .

2. Axundov A. Naşəva, yoxsa Naxçıvan. "Elm və həyat" jurn., Bakı, 1979, №10

3. Aşıq Alı. Şeirlər, Bakı, 1982

4. Çəmənzəminli Y. V. Əsərləri, III c. Bakı, 1977

5. El çələngi, Bakı, 1983

6.Əlizadə S. Kitabda verdiyi lüğət, Kitabi-Dədə Qorqud. Bakı, 1999

7.Həbibbəyli İ. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı, 2007

8.Həbibbəyli İ. Qafqaz rus mənbələrində Ağrıdağı, Uluslararası türk kültüründə Ağrıdağ simpoziumu. Ankara, 2009, s. 173-176

9. Hüseyni Ə. Əfsanədən həqiqətə. "Qobustan" jurn., 1973, № 1

10.Kəndli Q. Zərdüşt, "Avesta" və Azərbaycan (Zərdüşti mənbələrə görə), Azərb. SSR EA xəbərləri (ədəbiyyat, dil və incəsənət), 1979, № 2, s. 17-28; № 4, s. 10-18

11. Kim nə vaxt, nə ücün. Bakı, 1962

12. Kondratov A. Sirdən biliyə doğru (tərcüməsi). Bakı, 1975

13.Qeybullayev Q. Qədim türklər və Ermənistan. Bakı, 1992

14.Qədirzadə Q. Nuh peyğəmbər, Dünya Tufanı və Naxçıvan. Naxçıvan, 2008

15.Quliyev Ə. Orxon-Yenisey abidələrində toponim və etnonimlər. Bakı, 2004

16. Nəbiyev N. Coğrafi adlar. Bakı, 1982

17. Səfərov Y. Bir əfsanənin mənşəyi, "Elm və həyat" jurn., 1982, № 10

18. Səfərov Y. Azərbaycan folklorunda tarixilik. Bakı, 2005

19. Sultanov R. "Nuhun tufanı" haqqında həqiqət. Bakı, 1971

20. Vəliyev K. Elin yaddaşı, dilin yaddaşı. Bakı, 1988

21. Yusifov Y. Qədim Şərq tarixi. Bakı, 1992

Türk dilində

22. Belli O. Ararat (Hari Ararat) adının kökönü. Uluslararası türk kültüründe Ağrıdağ sempoziumu. Ankara, 2009, s. 49-59

23. İnan A. Tarihte ve bugün şamanizm. Ankara, 1995

24. Kırzıoğlu M. F. Dede Korkut oğuznameleri, 61 k. İstanbul, 1952-1959

25. Ögəl B. Türk mitolojisi, I –II c. Ankara, 1989, 1995

Rus dilində

26. Меликишвили Г. Урартские клунообразные надписи. М., 1956, с. 7-8

27. Никитин К. Город Нахичеван и Нахичеванской уезд. СМОМПК, Тифлис, 1882, №2

28. Фрейзер Дж. Фольклор в Ветхом Завете (пер. с английского Д. Вольнина), 2-е изд. М., 1985

29. Ямпольский Л. О значении слова ван в имени Нахичевань (к анализу имени Нахичевань), известия АН Азерб. ССР(серия общественных наук), 1961, №1